# Emissiya prospekti (istiqraz-adi)

| Bəndlər | Qeydlər |
|---|---|
| | |
| **Bəyanat** | |
| Emissiya prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə | **Nümunə:**<br>Biz, aşağıda imza edənlər,<br>1. Bu Emissiya prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.<br>2. ____________ Cəmiyyətinin hər birinin nominal dəyəri ____ (sözlə ifadəsi) manat *(buraxıldığı valyuta fərqli olduqda həmin valyutanın adı)* olan ____ (sözlə ifadəsi) ədəd faizli (və ya diskontlu), təmin edilməmiş (və ya təmin edilmiş), sənədsiz, adlı istiqrazların Emissiya prospektinə daxil edilən bütün məlumatlar həqiqi faktlara əsaslanır, heç bir faktın gizlədilməmişdir və bunun üçün bütün lazımi tədbirlər görülmüşdür.<br><br>*Emissiya prospektinə daxil edilmiş bütün məlumatlara və ya müəyyən bir hissənə dair məsul olan bütün fiziki (hər birinin soyadı, adı və atasının adı, tutduqları vəzifə) və hüquqi (adları və qeydiyyatda olduğu ünvanları) şəxslərin siyahısı. Həmin şəxslərin imzası və imzalanma tarixi.* |
| **Mündəricat** | **Mündəricat aydın və təfərrüatlı göstərilməlidir.** |
| **1.Xəbərdarlıqlar** | |
| 1.1. Bu sənəd emissiya prospektinin giriş hissəsidir | |
| 1.2. Qiymətli kağızlara investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir | |
| 1.3. Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar. | |
| **Xülasə hissə** | **Xülasə prospektin ümumi həcminin 7%-dən və ya 15 səhifədən artıq olmamalıdır. Xülasədə olan məlumat aydın və başa düşülən formada təqdim edilməlidir** |
| **2.Emitent barədə məlumat** | |
| 2.1. Emitentin tam adı | |
| 2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə | |
| 2.3. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri | Emitentin fəaliyyət göstərdiyi bazardakı tendensiyalar, rəqabət mühiti və emitentin mövqeyi, tənzimləyici dəyişikliklər, texnolojik yeniliklər və s. kimi mövcud olan tendensiyalar barədə məlumat verilir. |
| 2.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd | Emitentin digər hüquqi şəxslərdə birbaşa və ya dolayısı ilə iştirak payları və ya nəzarət imkanları mövcuddursa, bu bənddə həmin hüquqi şəxslər barədə aşağıdakı məlumatlar təqdim olunur:<br>Hüquqi şəxsin adı və hüquqi ünvanı;<br>Emitentin həmin hüquqi şəxsdəki payı (faizlə);<br>Emitentin həmin hüquqi şəxsdəki iştirakının mahiyyəti (həmin hüquqi şəxsin əsas fəaliyyət istiqaməti və iştirakın emitent üçün əhəmiyyəti barədə məlumat verilir).<br><br>Əgər emitent hər hansı qrupun tərkibindədirsə və ya qrupda olan digər şəxslərdən iqtisadi, maliyyə və ya hüquqi baxımdan asılıdırsa, bu asılılığın mahiyyəti aydın şəkildə izah olunur. Buraya aşağıdakılar daxil ola bilər:<br><br>Qrup daxilindəki struktur;<br><br>Emitentin qrupdakı digər hüquqi şəxslərlə olan əlaqələri;<br><br>Hər hansı asılılıq olması barədə məlumat (məsələn, əsas gəlir mənbəyinin qrupdaxili müqavilələrdən asılı olması, rəhbərlikdə üst-üstə düşən şəxslər və s.) |
| 2.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd | Gəlir proqnozu verildikdə onun əsasını təşkil edən əsas fərziyyələr haqqında hesabat və gəlir proqnozunun emitentin uçot siyasətinə uyğunluğu haqqında müstəqil auditorun hesabatı prospektə əlavə edilir. Əgər gəlir proqnozu yoxdursa, "mövcud deyil" kimi qeyd olunması kifayətdir. |
| 2.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri | Bu bənddə, emitentin son 2 il üzrə **müstəqil auditor tərəfindən aparılmış audit yoxlamasının nəticələri** barədə **qısa, lakin əsas məqamları əhatə edən** məlumat verilir. Bu hissədə ən azı aşağıdakı məlumatların daxil edilməsi tövsiyə olunur: audit şirkətinin tam adı, rəyin qısa təsviri, rəyin hansı hansı dövrü əhatə etdiyi, auditor rəyində hər hansı mühüm qeyd və ya vurğulanan məsələlərin olub-olmaması . |
| 2.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir | Hər bir il üçün məlumatların audit olunub-olunmadığı barədə qeyd olunur. Əgər aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verilirsə, bu zaman əvvəlki maliyyə ilində eyni dövr ilə müqayisəli məlumatlar verilir, məsələn cari il üzrə 2-ci rüb üzrə məlumatlar təqdim olunduqda əvvəlki ilin 2-ci rübü ilə müqayisəli olunur. Seçilmiş maliyyə məlumatının qısa formada, əsas göstəricilər (aktivlərl, öhdəliklər, kapital, mənfəət və s.) olmaqla verilməsi tövsiyə olunur. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatı tarixindən bəri emitentin fəaliyyətində baş vermiş əhəmiyyətli dəyişikliklər barədə olduqda bu barədə məlumat verilir. |
| 2.8. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr | Son dövrlərdə baş vermiş (məlumatlar mövcuddursa son 3 il üzrə) və emitentin maliyyə sabitliyinə, pul axınına və ya borc öhdəliklərini vaxtında yerinə yetirmək imkanına təsir göstərmiş və ya göstərə biləcək əhəmiyyətli hadisələr qeyd olunur. Bu hadisələr aşağıdakıları əhatə edə bilər:<br>-Emitentin son 3 il üzrə maliyyələşməsi üçün hansı mənbələrdən istifadə etdiyi (kredit, qiymətli kağız buraxılışı və s.) və onların şərtləri haqqında qısa məlumat<br>-Kredit reytinqinin dəyişdirilməsi<br>-Emitentin əsas gəlir mənbəyində dəyişikliklər (məsələn, iri müqavilələrin itirilməsi və ya əldə olunması)<br>-İqtisadi və siyasi sabitliyə təsir edən xarici və daxili hadisələr (məsələn, inflyasiya artımı, devalvasiya, geosiyasi gərginlik və s.) və s. |
| 2.9. Emitentin əsas fəaliyyətlərinin təsviri | Bu hissədə emitentin hüquqi statusu, fəaliyyət növü və istiqamətləri barədə aydın və qısa məlumat təqdim olunur. Aşağıdakıların qeyd edilməsi tövsiyə olunur:<br><br>Emitentin fəaliyyət sahəsi – istehsal, xidmət, ticarət, bankçılıq, sığorta, investisiya fəaliyyəti və s.<br><br>Əsas məhsul və ya xidmətlər – nəyin istehsalı və ya hansı xidmətlərin göstərilməsi;<br><br>Əsas müştəri və bazarlar – məhsul və xidmətlərin təqdim edildiyi bazar seqmentləri (məsələn, yerli və ya xarici müştərilər, dövlət və ya özəl sektor);<br><br>Fəaliyyətin coğrafi əhatəsi – fəaliyyətin yerli və ya beynəlxalq miqyasda olması;<br><br>İstehsal və ya xidmət infrastrukturunun qısa təsviri – zavod, ofis, filiallar və s.;<br><br>Əsas tərəfdaşlar və təchizatçılar – varsa, strateji əhəmiyyətli tərəfdaşlıq münasibətləri. |
| 2.10. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti. | Bu bənddə, emitentdə mühüm iştirak payına malik olan şəxslərin emitentə nə dərəcədə və hansı yollarla nəzarət etdiyi barədə məlumat təqdim olunur (şəxslərin adları və payları (% ilə), nəzarət imkanları). Məlumatların Mülki Məcəllə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən qaydalara uyğunluğuna diqqət edilməsi tövsiyə olunur. |

| | |
|---|---|
| **3. Qiymətli kağızlar haqqında məlumat** | |
| 3.1. İstiqrazların növü | |
| 3.2. İstiqrazların valyutası | |
| 3.3. İstiqrazların təsbit olunan məhdudiyyətlər | Bu bənddə istiqrazların alqı-satqısı, dövriyyəsi və hüquqlarının həyata keçirilməsi ilə bağlı məhdudiyyətlər izah olunur. Belə məhdudiyyətlərə istiqrazların yalnız müəyyən investor kateqoriyasına təklif edilməsi, istiqrazların üçüncü şəxslərə ötürülməsinə dair razılıq tələb olunması və ya təminat predmetinə dair hüquqi öhdəliklər (məs. təminatın digər digər öhdəliklər üçün istifadə olunmasının qadağan edilməsi) daxil ola bilər. |
| 3.4. İstiqrazların təsbit olunmuş hüquqların təsviri | Bu bənddə istiqraz sahiblərinə qanunvericilik və emissiya şərtləri ilə tanınan **hüquqların məzmunu və həcmi** izah olunur. Təsbit olunmuş hüquqlar dedikdə, istiqraz mülkiyyətçisinin istiqrazdan irəli gələn maliyyə və qeyri-maliyyə hüquqları nəzərdə tutulur. |
| 3.5. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin nəyin əsasında hesablanması üsulu, həmin əsas barədə məlumat və onun müəyyən olunmasının mənbələri | Bu bənddə istiqrazların illik faiz dərəcəsi dəqiq göstərilir. Həmçinin faizlərin və istiqrazların nominal dəyərinin hansı tarixlərdə və hansı müddətdə ödəniləcəyi barədə ətraflı məlumat verilir. Əgər faiz dərəcəsi əvvəlcədən müəyyən edilməmişdirsə (məsələn, dəyişkən faizli istiqrazlar üçün), faiz dərəcəsinin hansı baza göstəricilər əsasında və hansı üsulla hesablanacağı, bu baza göstəricilərin mənbələri və dərc edildiyi resurslar barədə dəqiq və əsaslandırılmış məlumat təqdim olunması tövsiyə olunur. |
| 3.6. Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri | Bu bənddə emitentin buraxdığı təmin edilmiş istiqrazlar üzrə təqdim olunan təminatın növü, məzmunu və şərtləri barədə ətraflı məlumat verilir. |
| 3.7. İstiqrazların geri satın alınma şərtləri | Bu bənddə emitentin buraxdığı istiqrazların vaxtından əvvəl geri satın alınması ilə bağlı hüquqi və maliyyə şərtləri izah olunur. |
| 3.8. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi | Bu bənddə investorların əldə edəcəyi illik gəlir faizinin (gəlirlilik dərəcəsinin) necə hesablandığı qısa və sadə formada izah edilir. Qeyd olunmalı əsas məlumatlar: Ödəmə tezliyi, faiz gəlirinin hesablanma metodu, bir istiqraz üzrə ümumi gəlirin məbləği, gəlirin illik faizlə ifadəsi. Əgər istiqrazlar diskontlu yerləşdirilirsə diskontlu istiqraz olduğu qeyd olunur və illik sadə gəlirlilk göstəricisi barədə məlumat verilir. |
| 3.9. İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı | İstiqraz mülkiyyətçilərinin (investorların) hüquqlarını qorumaq üçün təyin olunan təmsilçi olduqda bu barədə təmsilçi barədə qısa məlumat verilir. Təmsilçi yoxdursa "təmsilçi nəzərdə tutulmamışdır" qeyd oluna bilər. |
| 3.10. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat | Bu bənddə təmin edilmiş istiqrazlar üzrə təqdim olunan təminatın **dəyərinin istiqrazların əsas məbləği və faizlərinin vaxtında və tam ödənilməsinə necə təsir etdiyi** barədə ətraflı məlumat verilir. Xəbərdarlıq kimi təminatın bazar dəyərinin dəyişməsi və bazar şəraitinin pisləşməsi hallarında investorlar üçün risklərin mövcud olacağı bildirilməsi vacibdir. |
| 3.11. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri. | Bu bənddə emitent tərəfindən istiqrazların tənzimlənən bazarda ticarətə buraxılması məqsədilə müraciət olunub-olunmaması barədə məlumat verilir. Əgər belə müraciət nəzərdə tutulubsa, istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazarın adı göstərilir, həmin bazar barədə qısa məlumat (ünvanı, əlaqə vasitələri, internet səhifəsi, fəaliyyət istiqamətləri) təqdim edilir və "Bakı Fond Birjasında qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinqi" Qaydalarına istinad edilməklə istiqrazların həmin bazarda ticarətə buraxılması şərtləri izah olunur. |
| **4. Risk faktorları** | |
| 4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları | Bu bənddə müvafiq qiymətli kağızla bağlı risklər investorların diqqətinə çatdırılır. İstiqrazların likvidliyi, təkrar bazarının olub-olmaması, gələcəkdə qiymətli kağızlar bazarındakı vəziyyətin istiqrazların dəyərinə necə təsir edə biləcəyi, şirkətin maliyyə vəziyyətinin istiqrazların dəyərinə necə təsir edə biləcəyi kimi məlumatlar və s. bu bənddə qeyd olunması tövsiyə olunur. |
| 4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları | İqtisadi şəraitin dəyişməsi, maliyyə və likvidlik problemləri, idarəetmə çatışmazlıqları, hüquqi və tənzimləyici dəyişikliklər, siyasi qeyri-sabitlik, bazar riskləri və təbii fəlakətlər kimi risk faktorları emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilər. Bu bənddə emitentin fəaliyyət göstərdiyi sahənin xüsusiyyətləri nəzərə alınmaqla öhdəliklərinin yerinə yetirilməsinə təsir edə bilən risk faktorları barədə məlumat verilir. |
| **5. Təklif** | |
| 5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi | Bu bənddə istiqrazların buraxılmasının əsas məqsədi mənfəət qazanmaq və ya risklərin sığortalanmasından fərqli olduqda, investorların məlumatlandırılması üçün emissiyanın digər səbəbləri açıqlanır. Misal üçün: əsas kapitala investisiyalar, likvidlik ehtiyaclarının ödənilməsi, strateji məqsədlər və s. qeyd oluna bilər. |
| 5.2. Təklifin şərtlərinin təsviri | Yerləşdirmə ilə bağlı müddətlər, məlumatların açıqlanması, yerləşdirmə üsulu və qaydası kimi təklifin əsas şərtləri ilə bağlı məlumat verilir. |
| 5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat | Emissiyada iştirak edən şəxslərin (BFB, MDM, anderrayter şirkət(lər)in və s.) maraqları və maraqların toqquşması halları ilə bağlı məlumat verilir. Tərəflər arasında maraqlar toqquşması halının mövcud olub-olmamasının qeyd edilməsi tövsiyə olunur. |
| 5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği. | Bu bənddə investorların istiqraz alışı, əldə olunan faiz gəliri üzrə ödəməli olduqları vergilər və digər mümkün xərclər barədə məlumat verilir. Nümunə kimi aşağıdakı məlumatları qeyd etmək olar: ödəmə mənbəyindən vergi tutulması barədə məlumat, hüquqi və fiziki şəxslərə münasibətdə tətbiq olunan vergi dərəcəsi və şərtləri barədə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun məlumat, BFB-nin ticarət haqqı,investisiya şirkətinin xidmət haqqı, bank xərcləri, depo hesabının açılması üçün xidmət haqqı və əgər varsa investisiya şirkətinin xidmət haqqı və s. |

| **İstiqrazlar barədə tələb olunan məlumat** | |
|---|---|
| **6. Əsas məlumat** | |
| 6.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat | Emissiyada iştirak edən şəxslərin (BFB, MDM, anderrayter şirkət(lər)in və s.) maraqları və maraqların toqquşması halları ilə bağlı məlumat verilir. Tərəflər arasında maraqlar toqquşması halının mövcud olub-olmaması qeyd olunur. |
| 6.2. İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat | Bu bənddə emitentdən istiqraz təklifinin **səbəbləri** və istiqrazların yerləşdirilməsindən **əldə edilən vəsaitlərin hansı məqsədlər üçün istifadə olunacağı** barədə ətraflı məlumat təqdim edilir. |
| 6.3 . Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri | |
| 6.4. Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat. | |
| **7. İstiqrazlar barədə məlumat** | |
| 7.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik | |
| 7.2. İstiqrazların növü | |
| 7.3 . Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə) | Cədvəl şəklində tədavüldə olan istiqraz buraxılışları və yeni buraxılacaq istiqrazlar barədə məlumat qeyd olunur. |
| 7.4 . İstiqrazların valyutası | |
| 7.5. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer | Milli Depozit Mərkəzi barədə tələb olunan məlumat qeyd olunur. |
| 7.6 . Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat | Bu bənddə təklif olunan qiymətli kağızlara aid hər hansı bir kredit reytinqi verilibsə, həmin reytinqin səviyyəsi (məsələn, "BB+", "Baa2" və s.), reytinqi verən reytinq agentliyinin adı (məsələn, Moody's, S&P, Fitch və ya digər) və reytinqin verilmə tarixi qeyd olunur.<br><br>Əlavə olaraq, reytinqə təsir edən əsas maliyyə və qeyri-maliyyə amilləri (məsələn, emitentin maliyyə sabitliyi, borc yükü, gəlir axını, bazar riski, hüquqi mühit və s.) barədə qısa və aydın izahat verilməsi tövsiyə olunur.<br><br>Əgər qiymətli kağızlara reytinq verilməyibsə, bu barədə “təklif olunan qiymətli kağızlara hər hansı kredit reytinqi verilməmişdir” qeydinin olunması kifayətdir. |
| 7.7. İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər | Bax: 3.3 -cü və 3,4-cü bəndlər |
| 7.8. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda) | |
| 7.9. İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti | Nominal dəyər və faiz ödənişlərinin nə vaxt ödəniləcəyi barədə dəqiq məlumat verilir. |
| 7.10. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti | Mülki Məcəllədəki iddia müddəti ilə bağlı tələblər nəzərə alınmalıdır. |
| 7.11. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu | Bax: 3.5-ci bənd |
| 7.12. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları | Bazarda baş verə biləcək mənfi hadisələr – o cümlədən faiz dərəcələrinin artması, likvidlik problemləri və ya iqtisadi qeyri-müəyyənliklər – istiqrazların baza aktivinə (əgər varsa) və istiqrazlar üzrə ödəniş və hesablaşmalara mənfi təsir göstərməsi barədə məlumat verilir. Belə hallarda emitent ödənişlərin vaxtında və tam həyata keçirilməsini təmin etmək məqsədilə görəcəyi ehtiyat mexanizmləri (məsələn, ehtiyat fondları, ödənişin təxirə salınması hüququ və ya restrukturizasiya prosedurları) barədə məlumat verir. |
| 7.13. Ödənişlər üzrə hesablaşma agentinin adı | Milli Depozit Mərkəzi tərəfindən və ya emitentin özü tərəfindən həyata keçirilə bilər. |
| 7.14. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat | Bax: 3.10-cu bənd |
| 7.15. İstiqrazların geri satın alınmasının şərtləri | Bax: 3.7-ci bənd |
| 7.16. Gəlirlik dərəcəsi və onun hesablanması qaydası | Bax: 3.8-ci bənd |
| 7.17. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat | Bax: 3.9-cu bənd |
| 7.18. İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı | |
| 7.19. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda) | Bu bənddə təklif edilən istiqrazların əldə edilməsində mövcud olan hər hansı məhdudiyyətlər barədə məlumat verir. Məhdudiyyətlər aşağıdakı kateqoriyalara aid ola bilər:<br><br>-Hüquqi məhdudiyyətlər:<br>Məsələn, qnunvericilikdə müəyyən investor kateqoriyalarının istiqrazları əldə etməsi qadağan edilə bilər (xarici vətəndaşlar, müəyyən sahələrdə fəaliyyət göstərən şəxslər və s.).<br>-İnzibati və ya tənzimləyici məhdudiyyətlər:<br>Məsələn, istiqrazların müəyyən vaxt ərzində satışının qadağan olunması, müəyyən investisiya fondları və ya qurumlar üçün alınma limitləri və s.<br>-Emitentin daxili qaydaları:<br>İstiqrazların əldə edilməsinə dair şirkətin nizamnaməsində və ya səhmdarlar arasında bağlanmış müqavilələrdə nəzərdə tutulan məhdudiyyətlər.<br>-Digər məhdudiyyətlər:<br>Məsələn, müəyyən investor qruplarına üstünlük hüququnun verilməsi, istiqrazların müəyyən seqmentdə yerləşdirilməsi və ya satış zamanı tətbiq olunan digər qaydalar. |
| 7.20. İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi. | |
| **8. Təklifin şərtləri** | |
| 8.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri | |
| 8.2. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası | "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 10-cu maddəsinin tələbləri nəzərə alınmalıdır. |
| 8.3. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı | "Qiymətli kağızlar bazarı haqqında" Qanunun tələbləri nəzərə alınmalıdır |
| 8.4. İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat: | |
| 8.4.1. İstiqrazlara abunə yazılışının qaydası | “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar”ın tələblərinə uyğun müddətlər nəzərə alınmalıdır. |
| 8.4.2. Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması qaydası və müddəti | |
| 8.4.3. Abunə yazılışının (investisiya etmək üçün qiymətli kağızların sayına və ya məcmu miqdarına) minimum və/və ya maksimum məbləğini | |
| 8.5. İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası | Hərrac barədə ətraflı məlumat (birqiymətli yaxud rəqabətli, başlama və başa çatma tarixləri) qeyd olunur. |
| 8.6. İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası | "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinin tələblərinə və “İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar”ın 3.5-ci və 3.7-ci maddələrinin tələbləri nəzərə alınmalıdır. |
| 8.7. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat | |
| 8.8. İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat | |
| 8.9. İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat | Əgər təklif qiyməti əvvəlcədən məlum deyilsə, bu halda qiymətin hansı metodologiya əsasında müəyyən ediləcəyi izah edilir. Eyni zamanda, qiymətin müəyyənləşdirilməsi prosesində iştirak edən şəxslər və onların bu prosesdəki məsuliyyətləri barədə də məlumat təqdim edilməsi tövsiyə olunur. |

| | |
|---|---|
| 8.10. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği | Bax: 5.4-cü bənd |
| 8.11. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı | Öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirməsi qeyd olunmaqla anderrayter barədə bənddə tələb olunan məlumatlar dəqiq göstərilir. |
| 8.12. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı. | |
| **9. Ticarətə buraxılma və onun tənzimlənməsi** | |
| 9.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri | Bax: 3.11-ci bənd |
| 9.2. Market meyker(lər) barədə məlumat. | Market meyker(lər) nəzərdə tutulduqda ətraflı məlumat verilir. |
| **10. Kredit reytinqləri** | |
| 10.1. Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri. | Emitentin və ya onun borc qiymətli kağızları üçün təyin edilmiş kredit reytinqləri barədə ətraflı məlumat verilir. Əlavə məlumat üçün 7.6-cı bəndə baxa bilərsiniz. |
| **İstiqrazların emitenti və zamin (olduqda) barədə tələb olunan məlumat** | |
| **11. Emitentin auditorları barədə məlumat** | |
| 11.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat | |
| 11.2 . Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat. | Auditorların əvəzlənməsi və ya dəyişdirilmə halı mövcud olduqda bu barədə **səbəbləri** göstərilməklə ətraflı məlumat verilir. |
| **12. Seçilmiş maliyyə məlumatı** | |
| 12.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. | Hər bir il üçün məlumatların audit olunub-olunmadığı barədə qeyd olunur. Əgər aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verilirsə, bu zaman əvvəlki maliyyə ilində eyni dövr ilə müqayisəli məlumatlar verilir, məsələn cari il üzrə 2-ci rüb üzrə məlumatlar təqdim olunduqda əvvəlki ilin 2-ci rübü ilə müqayisəli olur. Seçilmiş maliyyə məlumatı qısa formata, əsas göstəriciləri (aktivlər, öhdəliklər, kapital, mənfəət və s.) qeyd etməklə verilməsi tövsiyə olunur. |
| **13. Emitent barədə məlumat** | |
| 13.1. Emitentin tam adı, təşkilati-hüquqi forması | |
| 13.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri | Emitentin hüquqi şəxs kimi dövlət qeydiyyatına alındığı tarix və dövlət qeydiyyat nömrəsi göstərilir. |
| 13.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi | |
| 13.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları | |
| 13.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə) | Maliyyə hesabatlarının son dərc olunma tarixindən sonra emitentin həyata keçirdiyi irihəcmli və ya əhəmiyyətli investisiya qoyuluşları barədə məlumat verilir. |
| 13.6. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəliklər və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat. | Bu bənddə emitentin idarəetmə orqanlarının yaxın gələcəkdə həyata keçirməyi planlaşdırdığı əsas investisiya layihələri üzrə mövcud öhdəlikləri və bu öhdəliklərin yerinə yetirilməsi üçün nəzərdə tutulan maliyyə mənbələri barədə məlumat verilir. Bu mənbələr daxili vəsaitlər, kreditlər, yeni qiymətli kağız buraxılışı və ya digər maliyyə resursları ola bilər. Əgər belə öhdəliklər mövcud deyilsə, bu barədə ayrıca qeyd verilməsi tövsiyə olunur. |
| 13.7. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat. | Bu bənddə emitentin qiymətli kağızlarının ticarətə çıxarıldığı tənzimlənən bazarlar barədə tam və dəqiq məlumat verilir. |
| **14. Emitentin biznesinin icmalı** | |
| 14.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri | Əsasən son üç ildə satılmış məhsulların və ya göstərilmiş xidmətlərin əsas kateqoriyaları göstərilməklə (məsələn, məhsul növləri, xidmət sahələri üzrə), hər maliyyə ili üzrə ayrı-ayrılıqda məlumatlar verilir.<br>Eyni zamanda, emitntin fəaliyyət göstərdiyi sahə, bazardakı mövqeyi, təqdim etdiyi məhsullar və ya xidmətlər və s. barədə məlumat təqdim edilir. |
| 14.2. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu | Bu bənddə emitentin son dövrdə təqdim etdiyi və ya inkişaf etdirdiyi yeni məhsul və ya xidmətlər barədə ətraflı məlumat verilir. Məhsul və ya xidmətlərin texniki, kommersiya və ya digər mühüm xüsusiyyətləri qeyd edilməli, habelə onların hazırkı inkişaf statusu – məsələn, konseptual mərhələ, sınaq (pilot) mərhələsi, istifadəyə verilməsi və ya bazara çıxarılması kimi – açıqlanır. |
| 14.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri | Bu bənddə emitentdən rəqabət apardığı əsas bazarların təsviri qeyd olunur. Emitent fəaliyyət göstərdiyi bazarların coğrafi əhatə dairəsini (yerli, regional və ya beynəlxalq), həmin bazarların əsas xüsusiyyətlərini və həcmini göstərilir. Həmçinin bazarda mövcud olan əsas rəqiblər, ümumi rəqabət mühiti, emitentin bazar payı və rəqabət üstünlükləri (məsələn, məhsulun keyfiyyəti, qiymət siyasəti, texnoloji üstünlüklər və s.) barədə məlumat verilməlidir. Bununla yanaşı, bazarın inkişaf tendensiyaları və gələcək perspektivləri barədə də məlumat verilə bilər. |
| 14.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması. | Prospektin digər bəndlərində rəqabət mövqeyi ilə bağlı məlumat (hər hansı bir üstünlük) qeyd olunduğu təqdirdə bu məlumatın açıqlandığı mənbələr barədə məlumat (keçid və s.) təqdim olunur. |

| | |
|---|---|
| **15.Digər təşkilatlarda iştirak** | |
| 15.1. Emitentin digər hüquqi şəxslərdə qısa təsviri | Emitentin digər hüquqi şəxslərdə birbaşa və ya dolayısı ilə iştirak payları və ya nəzarət imkanları mövcuddursa, bu bənddə həmin hüquqi şəxslər barədə aşağıdakı məlumatlar təqdim olunur:<br>Hüquqi şəxsin adı və hüquqi ünvanı;<br>Emitentin həmin hüquqi şəxsdəki payı (faizlə);<br>Emitentin həmin hüquqi şəxsdəki iştirakının mahiyyəti (həmin hüquqi şəxsin əsas fəaliyyət istiqaməti və iştirakın emitent üçün əhəmiyyəti barədə məlumat verilir). |
| 15.2. Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi | Bax: 2.4-cü bənd |
| **16.Tendensiyalar barədə məlumat** | |
| 16.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat | Bu bənddə emitent, audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən indiyə qədər **onun maliyyə vəziyyəti, fəaliyyət nəticələri və ya gələcək inkişaf perspektivlərinə mənfi təsir göstərə biləcək hər hansı əhəmiyyətli dəyişikliklər** baş veribsə bu barədə məlumat verilir. Əgər olmayıbsa bu hal da qeyd olunur. |
| 16.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat. | Bənddə cari maliyyə ili ərzində emitentin fəaliyyətinə **əlaqədar sahədə müşahidə olunan tendensiyalar, bazar dəyişiklikləri, hüquqi və ya tənzimləyici risklər, maliyyə çətinlikləri, tələb və öhdəliklər, qeyri-müəyyən iqtisadi şərait və ya gözlənilən hadisələr** kimi amillərin təsir edə biləcəyi ehtimalı varsa, bu barədə məlumat verilir. Əgər belə risklər və ya gözlənilən təsirlər mövcud deyilsə, bu halda “emitentin fəaliyyətinə təsir edə biləcək məlum risk və ya qeyri-müəyyənlik mövcud deyil” qeydi yazıla bilər. |
| **17. Gəlir proqnozu** | Gəlir proqnozu verildikdə onun əsasını təşkil edən əsas fərziyyələr haqqında hesabat və gəlir proqnozunun emitent uçot siyasətinə uyğunluğu haqqında müstəqil auditorun hesabatı prospektə əlavə edilir. Əgər gəlir proqnozu yoxdursa, "mövcud deyil" kimi qeyd olunması kifayətdir. |
| 17.1. Emitent öz mülahizəsinə əsasən emissiya prospektinə, bu Əlavənin 17.2-ci – 17.5-ci bəndlərinin tələblərinə uyğun, gəlir proqnozu barədə məlumatı emissiya prospektinə əlavə edir | |
| 17.2. Emitent tərəfindən müəyyən edilən və proqnozun əsasını təşkil edən əsas fərziyyələr haqqında hesabat. Hesabatda emitentinin idarə heyətinin təsir edə biləcəyi və həmçinin idarə heyətinin təsirindən kənarda olan amillər və fərziyyələr arasındakı fərq aydın şəkildə göstərilməlidir | |
| 17.3. Gəlir proqnozunun emitentin uçot siyasətinə uyğunluğu haqqında müstəqil auditorun hesabatı gəlir proqnozuna əlavə edilməlidir | |
| 17.4. Gəlir proqnozu və ya hesablaması keçmiş maliyyə məlumatları ilə müqayisə edilə bilən əsasda hazırlanmalıdır | |
| 17.5. Emissiya prospektinə əvvəl dərc olunmuş gəlir proqnozu daxil edildikdə, həmin proqnozun emissiya prospektinin tərtib olunması tarixinə etibarlılığı barədə məlumat təqdim edilməlidir. | |
| **18 . Emitentin idarəetmə və nəzarət orqanları** | Bu bəndin alt bəndlərində tələb olunan məlumatların cədvəl şəklində göstərilməsi tövsiyə olunur. |
| 18.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar: | |
| 18.1.1. adı, soyadı, atasının adı | |
| 18.1.2. funksiyaları | |
| 18.1.3. xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat. | |
| **19. İdarə heyətinin işgüzar praktikası** | |
| 19.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı | |
| 19.2. Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat. | Bu bənddə emitentin qeydiyyatda olduğu ölkədə tətbiq olunan korporativ idarəetmə standartlarına uyğunluğu barədə hesabat təqdim edilir. Hesabatda şirkətin idarəetmə strukturu, idarə heyətinin fəaliyyəti, şəffaflıq, hesabatlılıq və maraqlı tərəflərin hüquqlarının qorunması kimi əsas aspektlərin həmin standartlara uyğunluğu qiymətləndirilir. |

| | |
|---|---|
| **20. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər** | |
| 20.1. Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti | |
| 20.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri | Burada mühüm iştirak payına sahib olan səhmdarların emitentə nəzarət xüsusiyyətlərini və bu nəzarətin sui-istifadə edilməməsi üçün görülən tədbirləri qeyd edilir. Buraya səhmdarların idarəetmədə təsiri, səsvermə hüquqları və strateji qərarlara təsir mexanizmləri, eləcə də şəffaflığı təmin etmək, minoritar səhmdarlarının hüquqlarını qorumaq və maraqlar toqquşmasının qarşısını almaq üçün korporativ idarəetmə qaydaları, daxili nəzarəti kimi tədbirlər daxildir. Məlumatar verilərkən Mülki Məcəlləyə və emitentin nizamnaməsi ilə müəyyən edilmiş qaydalara uyğunluğuna diqqət edilir. |
| 20.3. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat. | |
| **21. Emitentin maliyyə məlumatları** | |
| 21.1. Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları | Bu bənddə emitentin başa çatmış son iki maliyyə ili üzrə auditdən keçmiş maliyyə hesabatları təqdim olunur. Hər maliyyə ili üzrə aşağıdakı hesabatlar təqdim edilməsi tövsiyə olunur:<br>Maliyyə vəziyyəti haqqında hesabat;<br>Mənfəət və zərər haqqında hesabat;<br>Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;<br>Kapitalda dəyişikliklər haqqında hesabat;<br>Maliyyə hesabatlarına dair izahat qeydlər. Son başa çatmış il üzrə audit hesabatı hazır olmadıqda maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmaqla təqdim edilir və həmin il üzrə məlumatların audit edilmədiyi aydın qeyd olunur. Emitentin hesabatları konsolidasiya olunmuş formada tərtib olunursa bu zaman konsolidasiya olunmuş maliyyə hesabatları təqdim edilir. |
| 21.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları | |
| 21.3.Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir: | |
| 21.3.1. maliyyə vəziyyəti haqqında hesabatı | |
| 21.3.2. mənfəət və zərər haqqında hesabatı | |
| 21.3.3. kapitalda dəyişiklik haqqında hesabatı | |
| 21.3.4. nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabatı | |
| 21.3.5. uçot siyasətləri və izahlı qeydləri | |
| 21.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda) | 21.1-ci bənddə qeyd olunan məlumat konsolidasiya edilmiş olarsa, bu bənddə 21.1-ə istinad edərək o bənddə hesabatların konsolidasiya olunmuş maliyyə hesabatları olduğu qeyd olunur. |
| 21.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir | Bu bənddə, əgər emitent son audit edilmiş illik maliyyə hesabatlarından sonra rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etmişdirsə, həmin hesabatlar emissiya prospektinə daxil edilir.<br>Əgər bu hesabatlar audit olunubsa, prospektə müvafiq auditor rəyi də əlavə olunur.<br>Əgər audit olunmayıbsa, bu hal aydın şəkildə qeyd edilir və hesabatların auditdən keçmədiyi göstərilir.<br>Müraciət tarixinə uyğun olaraq sonuncu rüb üzrə maliyyə hesabatları əlavə edilməsi tövsiyə olunur. Müvafiq hesabatlar əvvəlki ilin müvafiq dövrü ilə müqayisəli təqdim olunur. |
| 21.6. Emissiya propekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir | Əgər emissiya prospekti, emitentin audit olunmuş son illik maliyyə hesabatının dərc olunmasından **9 ay və ya daha çox müddət keçdikdən sonra** hazırlanırsa, investorların daha **aktual maliyyə məlumatları** ilə təmin edilməsi məqsədilə prospektə **ən azı yarımillik (6 aylıq) aralıq maliyyə hesabatı** əlavə edilir. Bu aralıq hesabat **audit edilmiş və ya audit edilməmiş** ola bilər, lakin mütləq şəkildə **əvvəlki ilin eyni dövrü ilə müqayisəli** formada tərtib olunması tövsiyə olunur. Əgər əvvəlki bəndlərdə yarımillik aralıq maliyyə hesabatı əvvəlki ilin eyni dövrü ilə müqayisəli formada təqdim olunubsa o bəndə istinad etməklə məlumatın orada göstərildiyi qeyd oluna bilər. |
| 21.7. Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla) | Məhkəmə mübahisələri və digər hüquqi proseslər mövcuddursa bu barədə məlumat verilir. |
| 21.8.Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat. | Bu bənddə emitentin son audit olunmuş və ya dərc edilmiş maliyyə hesabatlarından sonra onun maliyyə vəziyyətində baş verən mühüm dəyişikliklər barədə məlumat təqdim olunur.<br><br>Aşağıdakılar barədə məlumat daxil edilə bilər:<br><br>-Likvidlik və ya öhdəliklərə dair dəyişikliklər<br><br>-Əhəmiyyətli kredit və ya borc öhdəliklərinin alınması və ya ödənməsi<br><br>-Əsas aktivlərin alqı-satqısı və ya dəyərindəki ciddi dəyişikliklər<br><br>-Maliyyə göstəricilərinə əhəmiyyətli dərəcədə təsir edən hüquqi, tənzimləyici və ya iqtisadi hadisələr<br><br>-Əməliyyat gəlirləri və ya xərclərində kəskin dəyişikliklər<br><br>-Nizamnamə kapitalında dəyişikliklər (məsələn, yeni səhm buraxılışı)<br><br>Əgər maliyyə vəziyyətində əhəmiyyətli dəyişiklik baş verməyibsə, bu hal aydın şəkildə qeyd edilir (məsələn: “Son maliyyə hesabatlarının dərcindən sonra emitentin maliyyə vəziyyətində əhəmiyyətli dəyişiklik baş verməmişdir”). |
| **22. Emitent haqqında əlavə məlumatlar** | |
| 22.1.Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu | |
| 22.2.Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat: | Məlumatlar emitentin nizamnaməsinə uyğun qeyd olunur. |
| 22.2.1. fəaliyyət və məqsədlərin təsviri | |
| 22.2.2 .idarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı. | |
| 22.3.Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat. | Bu bənddə emitentin, emissiya olunan qiymətli kağızlar üzrə öhdəliklərin yerinə yetirilməsinə təsir göstərə biləcək, lakin emitentin əsas fəaliyyəti ilə birbaşa bağlı olmayan müqavilələr barədə məlumat təqdim etməsi tövsiyə olunur. Buraya girov və təminat müqavilələri, üçüncü tərəflərlə bağlanmış maliyyə və ya hüquqi xarakterli öhdəliklər, o cümlədən zaminlik müqavilələri və digər oxşar müqavilələr daxil ola bilər. |